BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Humanitar elmlər seriyası 2018*

UOT 94 (479.24)

# XX ƏSRİN I RÜBÜNDƏ DAŞNAK-BOLŞEVİK ERMƏNİLƏRİN AZƏRBAYCANA QARŞI ƏSASSIZ ƏRAZİ İDDİALARI VƏ DAĞLIQ QARABAĞ ƏRAZİSİNDƏ İKİNCİ "ERMƏNİ OCAĞI"NIN YARADILMASI

**Ş.Ş.CƏFƏROVA**
***Bakı Dövlət Universiteti***
***shabnamhaciyeva@gmail.com***

*XX əsrin I rübündə erməni daşnak-bolşevik qüvvələrin Azərbaycana qarşı ərazi iddiaları, əsasən, Dağlıq Qarabağ, Zəngəzur və Naxçıvana qarşı yönəlmişdi. Dağlıq Qarabağla yanaşı Naxçıvanın zorakı yollarla Azərbaycandan qopardılaraq Ermənistana birləşdirilməsində Mərkəz xüsusilə fəallıq göstərirdi. Nəticədə 1923-cü ildə Dağlıq Qarabağda ikinci "erməni ocağı" yaradıldı.*

**Açar sözlər:** Dağlıq Qarabağ, əsassız ərazi iddiaları, daşnak bolşeviklər

XX əsrin əvvəllərində Osmanlı imperiyasının şərq ərazilərində öz dövlətlərini yaratmaq iddiasına düşmüş daşnaklar və onlara bu işdə havadarlıq edən böyük dövlətlərin planları iflasa uğradıqdan sonra daşnaklar 1918-ci ildə Cənubi Qafqazda türk torpaqlarında Ermənistan Respublikasını qurdular. Bundan sonra bölgədə siyasi sabitliyin yaranacağı ehtimal olunsa da bunun tam əksinə olaraq daşnak Ermənistanı həm Türkiyəyə, həm də Azərbaycana əsassız ərazi iddiaları irəli sürərək hərbi əməliyyatlara başladı. Tarixçi M.Qasımlının qeyd etdiyi kimi, bir sıra beynəlxalq amillər səbəbindən bolşevik Rusiyası və Türkiyənin yaxınlaşması Cənubi Qafqazda yeni geosiyasi şərait yaratmışdır. Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edilərək sovetləşdirilmişdir. Daşnak Ermənistanı isə yenə də Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddialarını davam etdirmişdir [1, 505].

Ermənistanda daşnakların hakimiyyətinə son qoyulduqdan sonra iqtidara gələn bolşeviklər mahiyyətinə görə daşnakların siyasətini davam etdirir, Türkiyəyə və Azərbaycana qarşı əsassız ərazi iddiaları irəli sürürdülər. Belə demək mümkündürsə daşnaklar Türkiyədən ala bilmədiklərini Azərbaycan hesabına reallaşdırmağa çalışırdılar. Buna etiraz olaraq Azərbaycan SSR Xalq ədliyyə komissarı Behbud Şaxtaxtinski Rusiya Kommunist (bolşevik) Partiyası Mərkəzi Komitəsinə yazırdı ki, Zəngəzurda 123 min 95 nəfər azərbaycanlının, 99

min 257 nəfər ermənin yaşamasına baxmayaraq, 1920-ci il noyabrın 30-da Zəngəzur qəzasının qərb hissəsi Ermənistana verilmişdir. Bu ərazilərin verilməsi nəticəsində Azərbaycanın Naxçıvan bölgəsi, Türkiyənin isə türk dünyası ilə quru əlaqəsi kəsildi [2, 73].

Zəngəzurun Ermənistana zorakı yolla verilməsi ilə burada yaşayan əhali Qubadlı qəzasında yerləşdirildi. Lakin öz tarixi torpaqlarına qayıtmağa can atan azərbaycanlılara qarşı müxtəlif maneələr yaradılırdı. ZSFSR İttifaq Şurası yanında Qaçqınlar Komissiyasının 1922-ci il iyunun 12-də və iyulun 9-da keçirilən iclasında müzakirə edildi. Qəbul edilən qərarda yazılırdı: "Ermənistan SSR-dən olan və hazırda Azərbaycan SSR Naxçıvan diyarı ərazisində olan 28 min nəfər müsəlman qaçqını yerləşdirmək Azərbaycan SSR hökumətinə tövsiyə edilsin." Göründüyü kimi, öz tarixi torpaqlarına qayıda bilməyən soydaşlarımız Azərbaycan tərəfinin səyləri nəticəsində respublika ərazisində yerləşdirildi.

1923-cü ildə Lozanna konfransının gedişində Rusiya Xarici İşlər naziri G.Çiçerinin səsləndirdiyi "milli azlıqlar üçün hər hansı formada özünüidarəni yaratmaq yaxşı olardı" fikri erməni dairələrində sevinclə qarşılanmışdır. Sovet dövlətinin məqsədlərini gerçəkləşdirmək naminə milli azlıqlar məsələsini bütün dünya üçün qoymaq istəyən G.Çiçerin bu məsələyə dair ayrıca konfrans çağırılmasını təklif edirdi. Orada Şərqi Qalitsiya, Rumıniyada yaşayan macarlar məsələsini qabartmaqla əslində erməni istəklərini yerinə yetirməyə can atırdı. G.Çiçerin Millətlər Cəmiyyətinin milli azlıqlardan istifadə edərək sovet Rusiyasının daxili işlərinə qarışacağından, ermənilərin düşdüyü vəziyyətdən sovet dövlətinə qarşı istifadə edəcəyindən və ictimai rəyi ona qarşı yönəldəcəyindən narahat idi [1, 171].

1921-ci il martın 16-da imzalanmış Rusiya-Türkiyə müqaviləsinin üçüncü maddəsi ilə Naxçıvan ərazisi və statusu müəyyənləşdirildi. Həmin il oktyabrın 13-də Azərbaycan SSR, Ermənistan SSR və Gürcüstan SSR, digər tərəfdən isə Türkiyə arasında Qarsda Rusiya Sovet Federativ Sosialist Respublikasının vasitəçiliyi ilə müqavilə imzalandı. Müqavilənin 5-ci maddəsində Türkiyə, Ermənistan və Azərbaycan hökumətləri razı olduqlarını bildirirdilər: "Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir". Müqaviləyə üçüncü əlavədə Naxçıvanın sərhədləri müəyyənləşdirildi.

Cənubi Qafqazda, Azərbaycanın Dağlıq Qarabağ ərazisində "ikinci erməni ocağı"nın yaradılmasında israrlı görünən Beynəlxalq Erməni Cəmiyyətinin nümayəndələri dekabrın 23-də Lozannada G.Çiçerinlə görüşdə bu məsələni ondan xahiş etmişdilər. Ermənilər hiyləyə əl ataraq guya "erməni məsələsi"nin İngiltərə və ABŞ-da ictimai rəyi hiddətləndirdiyini, Fransada isə ona laqeyd yanaşıldığını qeyd edirdi. Həmin məsələdə İngiltərə və Fransa arasında fikir ayrılığı mövcud idi. Türkiyə nümayəndə heyətinin rəhbəri İsmət paşa isə erməni "milli ocağı"nın yaradılmasına hər vəchlə mane olmağa çalışırdı. Lakin erməni iddialarının puça çıxdığını görən Ermənistan rəhbərliyi və erməni diaspor təşkilatları saxta təbliğat yolu ilə xarici ölkələrdə ictimai rəyi öz xeyrlərinə

dəyişməyə nail oldular. Nəticədə ilk növbədə Türkiyə ərazisində yaşayan ermənilərin köçürülməsi və onları Azərbaycan ərazilərində yerləşdirməklə "yeni bir milli ocağın" yaradılması məsələsi nəzərdə tutulmuşdu. Bu işdə ermənilərə himayədarlıq edən bolşevik Rusiyasının əsas məqsədi dünya ictimai rəyini öz xeyrinə dəyişmək idi. Sovet dövləti I Dünya müharibəsindən qalib çıxmış Antanta ölkələrinin milli məsələdə SSRİ-nin daxili işlərinə müdaxilə etmək niyyətindən, ABŞ-da və Avropa ölkələrində (İngiltərə, Fransa) aparılan saxta erməni təbliğatı nəticəsində ermənilərə artan maraqdan öz məqsədləri naminə istifadə edərək, ictimai rəyi tərəfinə çəkməkdən ötrü türk, azərbaycanlı torpaqlarında yaradılmış Ermənistan SSR-in artıq mövcud olmasına baxmayaraq, ermənilər üçün yeni bir "ocağın" yaradılmasını uyğun görmüşdür. Belə bir "ocağın" yaradılması təkcə erməni istəklərinin yerinə yetirilməsi ilə deyil, daha çox sovet Rusiyasının strateji məqsədləri ilə bağlı olmuşdur.

Bəhs olunan dövrdə Azərbaycan kommunistləri öz vətənlərinin ərazi bütövlüyünə, öz sərvətinə etinasız yanaşaraq Mərkəzin qəbul etdiyi qərarlara bir növ müsbət yanaşırdı. Erməni bolşevikləri Azərbaycanda mükəmməl, məqsədyönlü plan əsasında iş quraraq rəhbər vəzifələri ələ keçirir, eyni vaxtda Dağlıq Qarabağ ətrafında hörümçək kimi tor qururdular. Tarixçi S.Seyidovanın qeyd etdiyi kimi, getdikcə, Azərbaycan ərazisində heç vaxt mövcud olmayan "Qarabağ məsələsi" yaranırdı. Erməni bolşevik-daşnakları, demək olar ki, əksər büro iclaslarında "Qarabağ məsələsi"ni müzakirəyə qoyurdular. A.Mikoyan, A.Nazaretyan, L.Mirzoyan və başqaları dəfələrlə öz çıxışlarında bu məsələnin həll olunmasını (Ermənistanın xeyrinə tələb etmişdilər) tələb etmişdilər [3, 101].

1921-ci ildən başlayaraq Azərbaycanın Zəngəzur, Qarabağ və Naxçıvan ərazilərinin əvvəlcə mübahisəli elan edilməsi, daha sonra isə ermənilərin xeyrinə həll edilməsi taktikasını işə salan bolşeviklər öz çirkin niyyətlərinə, demək olar ki, nail olurdular. Dağlıq Qarabağda L.Mirzoyan Azərbaycan əleyhinə iş aparaq Azərbaycanın ayrılmaz ərazilərinin Ermənistana verilməsinə yardım edirdi. Bu barədə N.Nərimanovun İ.V.Stalinə göndərdiyi məktubunda Dağlıq Qarabağın məhz Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilməsini göstərmişdi. Avqustun 8-də daşnaq libasına bürünmüş L.İ.Mirzoyan AK(b)PMK-ya ünvanladığı məktubunda yazırdı: "Dağlıq Qarabağda vəziyyəti normallaşdırmaq məqsədilə bir sıra konkret tədbirlər, o cümlədən bütün Dağlıq Qarabağı müstəqil inzibati vahid kimi ayıraraq Mərkəzə-Xalq Komissarları Sovetinə və Azərbaycan MİK-ya, partiya xətti ilə isə AK(b)PMK-ya tabe etmək [3, 103].

Qısa zaman müddətində Azərbaycan XKS yanında Dağlıq Qarabağ işləri üzrə Komissiya (Kirov, Mirzabekyants, Karakozov), həmçinin qatı daşnak-bolşevik Karakozovun başçılığı ilə 7 nəfərdən ibarət Dağlıq Qarabağ üzrə komitə yaradılır. Beləliklə, 1921-1922-ci illərdə Dağlıq Qarabağın rəhbərliyinə erməni kadrları cəlb olunur. Həmçinin Dağlıq Qarabağda guya kadr çatışmazlığını nəzərə alaraq Ermənistandan buraya kadrların göndərilməsi xahiş olunur. Göründüyü kimi, məsələyə hiyləgərcəsinə yanaşan daşnak-bolşeviklər guya Qarabağda idarəçiliyin yalnız erməni kadrlar tərəfindən aparıla biləcəyini qabart-

mağa çalışırdılar.

1923-cü il yanvarın 22-də Kirov və Karakozov Ermənistan K(b)PMK-nın k-tibi İonnisyana, yanvarın 30-da isə Kirov RK(b)P Zaqafqaziya Diyar Komitəsi Miyasnikova gizli teleqram vuraraq Qarabağa işləmək üçün Tavekelyan, Akopyan, Aydınyan, Vartanyan, Axtınski, Manutsyan, Seronu göndərməyi xahiş edirlər. Hətta kömək olmadan Qarabağda işi nizamlamağın qeyri-mümkünlüyünü də göstərirdilər [3, 104].

1923-cü il aprelin 23-də AK(b)PMK-nın Rəyasət Heyətinin iclasında Tavekelyan və Parizyanın əvəzinə Qarabağ Komitəsinə Çalyan və Manutsyan seçilir, aprelin 25-də bu Azərbaycan SSR-nin XKS tərəfindən təsdiq edildi.

1923-cü il iyunun 1-də AK(b)PMK-nın Rəyasət Heyəti Dağlıq Qarabağın muxtariyyətinin layihəsini 3 gün ərzində MK-yə təqdim olunmasını qərara alır. İyunun 27-28-də RK(b) P-nin Zaqafqaziya Diyar Komitəsinin ikigünlük iclasında AK(b) PMK-ya 1 ay ərzində Dağlıq Qarabağı muxtar vilayətə ayırmağı, ayrılan rayonların kəndliləri üçün torpaq və suyun ayrılmasını da təmin etmək tapşırıldı.

1923-cü il iyulun 1-də Dağlıq Qarabağ məsələsi AK(b)PMK-nın Rəyasət Heyətinin iclasında iyulun 7-də isə Azərbaycan MİK-nin iclasında müzakirə edildi. İyunun 4-də keçirilən iclasın sədri M.Qasımov, katibi isə M.Xanbudaqov idi. İclasda "Dağlıq Qarabağ haqqında" məsələ müzakirə edildi. Aşağıdakı məzmunda qərar qəbul edildi:

a) Qarabağın Dağlıq hissəsində Xankəndi Mərkəz və İcraiyyə komitəsi başda olmaqla Muxtar Qarabağ Vilayəti yaradılsın.
b) İcraiyyə Komitəsi yaradılana qədər Dağlıq Qarabağı idarə etmək üçün yoldaş Karakozov başda olmaqla İnqilab Komitəsi yaradılsın.
c) İnqilab Komitəsinə 2 aydan gec olmayaraq sovetlər qurultayının çağırılması tapşırılsın.
d) Yoldaş Ə.Qarayevin sədrliyi Sviridov, Karakozov, Bünyadzadə və İldırımın üzvlüyü ilə Komissiya yaradılsın və Komissiyaya tapşırılsın:

1) Dağlıq Qarabağın sərhədləri;
2) Aşağı Qarabağın (Aran Qarabağı) inzibati hüdudlarını;
3) Kürdüstanın Əsasnaməsi müəyyənləşdirsin [5; 8].

Azərbaycan SSR MİK Rəyasət Heyətinin 1923-cü il 7 iyul tarixli 5 saylı dekreti əsasında Azərbaycan SSR-in tərkib hissəsi kimi Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil edildi [6]. Dekretdə Azərbaycan SSR-in tərkib hissəsi kimi, mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağın erməni hissəsində muxtar vilayətin yaradılması Vilayət İcraiyyə Komitəsi və yerli sovetlərin muxtar vilayətin yaradılması Vilayət İcraiyyə Komitəsi və yerli sovetlərin muxtar vilayətin icra orqanları olması və vilayət icraiyyə Komitəsi yaradılana qədər İnqilab Komitəsinin təşkil edilməsi, 2 aydan gec olmayaraq icraiyyə orqanı seçmək üşün Sovetlər qurultayı çağırılması məsələləri nəzərdə tutulmuşdu.

Bu qərar qəbul edildikdən sonra Qarabağ məsələsi üzrə komitə ləğv olundu. Birinci vilayət sovetlər qurultayı çağırılanadək Müvəqqəti İnqilab

Komitəsi yaradıldı [9].

Azərbaycan SSR MİK və XKS-in M,Qasımovun sədrliyi, T.Əliyevin katibliyi ilə iyulun 21-də keçirilən iclasında "Qarabağ məsələsi üzrə komissiyanın məruzəsi" dinlənildi. Məruzəni D.Bünyadzadə etdi. Qəbul edilən qərara görə dağıdılmış Skobelevsk rus kənd icmasının torpağı Muxtar Vilayətə verildi; Şuşa şəhəri DQMV-yə daxil edildi; Qarabağın düzən hissəsində iki qəza təşkil edildi; sənəddə yazıldığı kimi, kürdlərin tutduğu ərazilərdə Kürdüstan qəzası yaradıldı; XKS-ə bu qəzaların dəqiq sərhədlərini və inzibati mərkəzlərini müəyyənləşdirmək tapşırıldı; DQMV İnqilab komitəsi tərkibində 5 nəfər: Karakozov (sədr) və üzvlər Bünyadzadə, Kostonyan, Kafiyev və Çalyandan ibarət olmaqla təşkil edildi; DQMV-nin əsasnaməsini son olaraq işləyib hazırlamaq Karakozov, Bünyadzadə, Çalyan, Vareykis və Manusyandan ibarət komissiyaya tapşırıldı; komissiyanın çağırılması Karakozova tapşırıldı; komissiyanın iş müddəti bir həftə ərzində müəyyən edilməli idi; bu muxtariyyətin məqsədlərinin və əhəmiyyətinin izah edilməsi üçün Azərbaycan MİK kəndlilərə müraciətnamə buraxmalı idi [7]. Göründüyü kimi, artıq qəbul edilmiş qərarla Şuşa şəhəri də Muxtar Vilayətin tərkibinə qatıldı. Belə bir addım Şuşa qəzası əhalisinin idarəsinə tamamilə zidd idi.

1923-cü il dekabrın 17-də Azərbaycan K(b)P MK Rəyasət Heyətinin iclasında "Dağlıq Qarabağ" komitəsinin tərkibi haqqında məsələ müzakirə edildi. Qəbul edilən qərara görə tərkibi Karakozov, Şuşa, Cavanşir, Cəbrayıl, Tavakozin, Papzyan və Şaduncdan ibarət olan komitə təsdiq edildi. RK(b)P Zaqafqaziya Diyar Komitəsindən xahiş edildi ki, Ermənistan XKS katibi Fanokolyansı Dağlıq Qarabağ komitəsində işləmək üçün Ermənistanda işdən azad etsin. M.Bağırova tapşırıldı ki, göstərilən tərkibi təcili olaraq XKS-dən keçirsin. Karakozova tapşırıldı ki, komitənin ehtiyacı olan smetanı təcili tərtib edib, XKS-in axşam iclasında təqdim etsin. Karakozova 2 həftəlik Yerevana ezamiyyətə getməyə icazə verildi [1, 197-198]

Təəssüflər olsun ki, bu dövrdə aparılan danışıqlarda əldə olunan nəticələrin heç biri Azərbaycanın xeyrinə həll edilmir, Azərbaycan bolşevikləri isə sadəcə olaraq hadisələri izləməklə məşğul idilər. Bundan hiddətlənən N.Nərimanov V.İ.Leninə məktubunda yazırdı: "həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycan ərazilərini, həm də müstəqilliyini itirir". O, V.İ.Lenindən mərkəzdə oturmuş erməni daşnak kommunistlərinin iyrənc işinə, murdar hərəkətlərinə son qoymağı xahiş edirdi [3, 107].

Beləliklə, 1924-cü ildə qəbul edilmiş əsasnaməyə görə DQMV-i Azərbaycan SSR-in tərkib hissəsi elan edilsə də, ermənilər Azərbaycan SSR-in tərkib hissəsi elan edilsə də, ermənilər Azərbaycan əraziləri hesabına öz dövlətini yaratmaq arzusundan əl çəkmirdilər.

## ƏDƏBİYYAT


1. Qasımlı M. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix-olduğu kimi (1920-1994-cü illər). Bakı. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016, 520 s.

2. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). 2 hissədə. I hissə. Bakı: Mütərcim, 2015, 648 s.
3. Seyidova S. Ermənistanın Azərbaycana qarşı təcavüzü və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində beynəlxalq təşkilatlarının mövqeyi (monoqrafiya). Bakı: ADPU-nun mətbəəsi, 2014, 411 s.
4. Səmyuel A.Uimz. Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri. Ermənilərin böyük fırıldaq seriyaları-I cild. Bakı: OKA Ofset Azərbaycan-Türkiyə Nəşriyyat-Poliqrafiya Şirkəti, 2004, 386 s.
5. Azərbaycan Respublikası Dövlət Arxivi, f.379, siy.1, iş 7492, v. 14
6. ARDA, f.379, siy.3, iş 73, v.135-136
7. ARDA, f.379, siy.3, iş 67, v.63
8. Azərbaycan Respublikası Siyasi Sənədlər Arxivi. f.1, siy.125, iş 303, v.29
9. ARSSA. F.1, siy.31, iş 186 a, v. 30
10. Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. I cild. Bakı: Oskar PNM, 2012, 444 s.

## НЕОБОСНОВАННЫЕ ТЕРРИТОРИАЛЬНЫЕ ПРЕТЕНЗИИ АРМЯН ДАШНАК-БОЛЬШЕВИКОВ ПРОТИВ АЗЕРБАЙДЖАНА В ПЕРВОЙ ЧЕТВЕРТИ XX ВЕКА И СОЗДАНИЕ ВТОРОГО «АРМЯНСКОГО ОЧАГА» В НАГОРНОМ КАРАБАХЕ

**Ш.Ш.ДЖАФАРОВА**

**РЕЗЮМЕ**

В первой четверти XX века территориальные претензии армянских дашнакско-большевистских войск против Азербайджана были направлены, главным образом, против Нагорного Карабаха, Зангузура и Нахчывана.

Помимо Нагорного Карабаха, Центр особенно активно объединял Нахчыван с насилием через Азербайджан. В результате в 1923 году в Нагорном Карабахе был создан второй «армянский очаг».

**Ключевые слова:** Нагорный Карабах, необоснованные территориальные претензии, дашнаки-большевики

## THE GROUNDLESS TERRITORIAL CLAIMS OF THE DASHNAK-BOLSHEVIK ARMENIANS AGAINST AZERBAIJAN IN THE FIRST QUARTER OF THE TWENTIETH CENTURY AND THE ESTABLISHMENT OF THE SECOND "ARMENIAN QUARRY" IN NAGORNO-KARABAKH

**Sh.Sh.JAFAROVA**

**SUMMARY**

In the first quarter of the 20th century territorial claims of the Armenian Dashnak-Bolshevik forces against Azerbaijan were mainly directed against Nagorno-Karabakh, Zangazur and Nakhchivan. In addition to Nagornyy Karabakh, the Center was particularly active in uniting Nakhchivan with violence through Azerbaijan. As a result, the second "Armenian quarry" was established in Nagorno-Karabakh in 1923.

**Key words:** Nagorno-Karabakh, groundless territorial claims, dashnak-bolshevik